Əl işdən soyumaz, ürək arzudan...

# QƏBƏLƏ

ictimai-siyasi qəzet

№ 40-41 (7502-7503) ❖ 1933-cü ildən nəşr olunur ❖ Cümə axşamı, 13 sentyabr 2018-ci il. news@qebele-ih.gov.az

## PREZİDENTİN İŞ GÜNDƏLİYİNDƏN

***6 sentyabr***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xorvatiya Respublikasında rəsmi səfərdə olub.

Azərbaycan və Xorvatiya prezidentlərinin təkbətək və geniş tərkibdə görüşü keçirilib.

Geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Xorvatiya Respublikasının Prezidenti xanım Kolinda Qrabar-Kitaroviçin iştirakı ilə Azərbaycan-Xorvatiya sənədlərinin imzalanması mərasimi olub.

Sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Xorvatiya Respublikasının Prezidenti xanım Kolinda Qrabar-Kitaroviç mətbuata bəyanatlarla çıxış ediblər.

***5 sentyabr***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 5-də Yaponiyanın xarici işlər naziri Taro Kononun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Söhbət zamanı kadr hazırlığı məsələlərində təcrübə mübadiləsinin önəmi vurğulanıb, iqtisadi sahədə əməkdaşlığımızın genişləndirilməsində investisiyaların təşviqinin və qorunmasının əhəmiyyətindən danışılıb, ölkələrimiz arasında iqtisadi əlaqələrin müxtəlif istiqamətlərdə, o cümlədən kənd təsərrüfatı, turizm və digər sahələrdə genişləndirilməsinin böyük potensiala malik olduğu qeyd edilib.

***3 sentyabr***

Ölkə başçısı İlham Əliyev Qırğız Respublikasında səfərdə olub.

İlham Əliyev Qırğızıstanda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VI Sammitində iştirak edib. Qırğız Respublikasının Çolpon-Ata şəhərindəki Çingiz Aytmatov adına "Rux Ordo" Mədəniyyət Mərkəzində Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ) VI Zirvə görüşü keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Zirvə görüşündə iştirak edib.

Qırğız Respublikasının Prezidenti Sooronbay Jeenbekovun Zirvə görüşündə iştirak edən Azərbaycan Prezidenti İlham Əliyevlə görüşü olub.

***1 sentyabr***

Prezident İlham Əliyev Rusiya Federasiyasında rəsmi səfərdə olub.

Soçi şəhərindəki "Boçarov Ruçey" dövlət iqamətgahında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin görüşü keçirilib. Soçidə geniş tərkibdə görüş və işçi nahar başa çatandan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin iştirakı ilə sənədlərin imzalanması mərasimi olub. Sənədlərin imzalanması mərasimi başa çatandan sonra Rusiya Federasiyasının Prezidenti Vladimir Putin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mətbuata bəyanatlarla çıxış ediblər.

# Ulu öndər Heydər Əliyevin təhsil siyasəti ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir



Azərbaycan təhsilinin köklü şəkildə yenidənqurulmasının və inkişafının əsası ötən əsrin 70-ci illərində, o vaxt hələ müstəqil olmayan Azərbaycan Respublikasının rəhbəri ümummilli lider Heydər Əliyev tərəfindən qoyulub.

Həmin dövrdə milli təhsili inkişaf etdirmək üçün ulu öndərin həyata keçirdiyi tədbirlər İttifaq rəhbərliyi tərəfindən böyük təzyiqlərlə qarşılanırdı. Buna baxmayaraq ulu öndər öz nüfuzu, insanlara təsir etmək qabiliyyəti, ən əsası isə xalqına, vətəninə bağlılığı ilə hər cür çətinliklərə qalib gələrək Azərbaycanın gələcəyinin əsasi olan milli təhsilin inkişafına böyük diqqət və qayğı göstərirdi. Əslində, bu ulu öndərin Azərbaycanı gələcək müstəqilliyə hazırlamaq yolunda uzaqgörənliklə həyata keçirdiyi tədbirlər silsiləsində mühüm addımlardan idi. Ulu öndər bilirdi ki, 1918-ci ildə qurulmuş Azərbaycan Xalq Cümhuriyyətinin ömrünün qısa olmasının səbəblərindən biri də savadsızlıq, ölkəni idarə edəcək kifayət qədər savadlı kadrların çatışmazlığı idi. Ona görə də ulu öndər respublikada təhsilin səviyyəsinin yüksəlməsinə, yüksək hazırlıqlı kadrların hazırlanmasına böyük əhəmiyyət verirdi.

Ulu öndərin Azərbaycana rəhbərliyinin birinci dönəmində-1969-1982-ci illərdə təhsilin ilkin başlanğıcı olan məktəbəqədər tərbiyə müəssisələrinin sayı 1600-dən 1875-ə çatdırılıb. O dövrdə ulu öndərin imzaladığı "Ümumtəhsil məktəbləri şagirdlərinin dərsliklərindən pulsuz istifadəyə keçmək haqqında" qərarı da xalqına, onun gələcəyinə böyük töhvə idi.

1970-1980-ci illərdə Azərbaycanda 5 yeni ali təhsil ocağı yaradılıb. Həmin illərdə Heydər Əliyevin xeyir duası ilə keçmiş SSRİ-nin ali məktəblərinə 15 mindən çox oğlan və qız təhsil almaq üçün göndərilib. Həmin gənclərin əksəriyyəti sonralar nəinki Azərbaycanda, hətta İttifaqın müxtəlif respublikalarında sənaye, tikinti sahələrində və idarəetmə orqanlarında müvəffəqiyyətlə çalışıb və çalışmaqdadırlar.

Ulu öndər Azərbaycana ikinci dəfə hakimiyyətə gəldikdən sonra müstəqil ölkəmizdə elmin, təhsilin inkişafına hesablanan nəhəng tədbirlər həyata keçirib.

Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin Azərbaycan təhsilinə diqqət və qayğısı, Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələr ulu öndərin təhsil siyasətinin uğurlu davamıdır.

Ölkə Prezidentinin rəhbərliyi ilə məktəb tikintisi, maddi texniki təchizatı, şagirdlərin pulsuz dərsliklərlə təminatı, müəllimlərin əmək haqqlarının mütəmadi olaraq artırılması, xaricdə təhsil alma məsələləri ulu öndərin müəyyən etdiyi yolla davam etdirilir.

Hər il qəbul imtahanlarında ən yüksək bal toplayanlara Prezident təqaüdü və istedadlı gənclərə fərdi təqaüdlər və s. mükafatlar verilir.

Ölkə Prezidentinin sərəncamı ilə "Ən yaxşı ümumtəhsil məktəbi" və "Ən yaxşı müəllim" mükafatlarının təqdim edilməsi də məktəbin və müəllimin statusunun yüksəldilməsinə xidmət edir.

Müəllimlərə, təhsil sahəsində çalışan bütün işçilərə qayğı və diqqətin artırılması ilə yanaşı məktəblərin maddi texniki bazasının yüksəldilməsi sahəsində də böyük tədbirlər həyata keçirilir. Son 14 ildə məktəblərin 70 faizindən çoxu yeni tikilib və ya əsaslı təmir olunub. Əlverişsiz, qəzalı vəziyyətdə olan və uyğunlaşdırılmış binalarda yerləşən məktəblər yeniləri ilə əvəz olunub.

Bütün bunların nəticəsidir ki, ölkədə təhsilin keyfiyyəti durmadan artır.

Bir faktı qeyd etmək yerinə düşər ki, ötən dərs ilində ali məktəblərə 40000-ə yaxın ümumtəhsil məktəbi məzunu qəbul olunmuşdursa, bu il onların sayı 40806 nəfərdir. Son beş ildəki ali məktəblərə qəbul imtahanlarının təhlili göstərir ki, ali məktəblərə qəbul olunanların sayı ilə yanaşı məzunların hazırlıq və bilik səviyyələri də xeyli yüksəlmişdir. Son 5 ildə qəbul imtahanlarında 300 baldan yuxarı toplayanların sayı 25,5 faiz, 400 baldan yuxarı toplayanların sayı 35,1 faiz, 500 baldan yuxarı toplayanların sayı 51,5 faiz, 600 baldan çox toplayanların sayı isə 81,3 faiz artıb.

Bu ilin qəbul imtahanlarında 3127 nəfər abituriyent 600 baldan yuxarı nəticə göstərib. Həmin göstərici ötən il 2472 nəfər idi. Qəbul imtahanlarında 700 bal toplayan məzunların sayı ötən il 15 nəfər bu il isə 29 nəfər olmuşdur.

Bu göstəricilər təhsil sahəsində aparılan islahatlarla mümkün olmuşdur. Sevindirici haldır ki, ölkəmizin XXI əsrin reallıqları ilə addımlayan təhsil sistemində Qəbələ təhsili də qabaqcıl yerlərdən birini tutur.

**Qüdrət SƏMƏDOV,**
**"Qəbələ"**